**“Torpaq icarəsi haqqında”, “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” və “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 12-ci, 13-cü və 27-ci bəndlərini rəhbər tutaraq, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 154; 2001, 3, maddə 149; 2002, 5, maddə 241, 12, maddə 706; 2003, 1, maddə 14; 2006, 5, maddə 389, 6, maddə 478, 8, maddə 657; 2007, 8, maddə 745; 2008, 5, maddə 348, 12, maddə 1048; 2012, 6, maddə 503; 2015, 3, maddə 247; 2018, 6, maddə 1183) 2-ci maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Ələt azad iqtisadi zonasında torpaqların icarəyə verilməsi və icarə münasibətləri “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 2.** “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 5, maddə 376; 2011, 7, maddə 594; 2014, 6, maddə 609; 2016, 1, maddə 17) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

“2.2. Bu Qanunun müddəaları Ələt azad iqtisadi zonasına şamil edilmir.”.

**Maddə 3.** “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 10, maddə 582; 2005, 8, maddə 692; 2008, 11, maddə 960; 2013, 11, maddə 1292; 2016, 3, maddə 417) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

“2.2. Ələt azad iqtisadi zonasında kənd təsərrüfatında sığortanın stimullaşdırılması sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 4.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 8, maddə 478; 2001, 12, maddə 736; 2002, 5, maddələr 237, 241; 2003, 1, maddə 11, 6, maddə 256, 8, maddə 423; 2004, 2, maddə 59, 6, maddə 415, 10, maddə 761; 2006, 2, maddə 67, 6, maddə 478, 8, maddə 657, 11, maddə 932; 2007, 1, maddə 3, 8, maddə 745; 2008, 5, maddə 348, 6, maddə 460, 8, maddə 707, 12, maddə 1048; 2009, 2, maddə 36; 2012, 6, maddə 497; 2013, 6, maddə 621; 2015, 3, maddə 244, 4, maddə 358, 10, maddə 1094; 2016, 1, maddələr 24, 27, 4, maddə 639; 2017, 1, maddə 24, 7, maddə 1301, 12, I kitab, maddə 2271; 2018, 5, maddə 890, 6, maddələr 1184, 1185) 1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“3. Ələt azad iqtisadi zonasında torpaq münasibətləri “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2018-ci il
1417-VQD